# Ağ Evdə imzalanan sənəd tarixi nailiyyətdir



Avqustun 8-də ABŞ-yə səfəri çərçivəsində üçtərəfli görüşdən sonra Azərbaycanın media nümayəndələrinə müsahibə verən Prezident İlham Əliyev səfərin nəticələri, ABŞ ilə münasibətlər, ATƏT-in Minsk qrupunun ləğvi, paraflanmış sülh sazişi, Birgə Bəyannamə və Zəngəzur dəhlizi ("Tramp yolu") ilə bağlı sualları cavablandırdı. Yekun sülh müqaviləsi üçün Ermənistanın etməli olduqlarını bir daha bəyan etdi.

Sosial Tədqiqatlar Mərkəzinin sektor müdiri İlyas Hüseynov "Azərbaycan" qəzetinə açıqlamasında bildirdi ki, Prezident İlham Əliyev Vaşinqtonda imzalanan Birgə Bəyannamədən sonra müsahibəsi zamanı mühüm məqamlara toxunub. Dövlət başçısı bildirdi ki, Ermənistan üzərinə düşən öhdəlikləri yerinə yetirməlidir. "Ermənistan Konstitusiyası dəyişdirilməli və Azərbaycana qarşı ərazi iddialarına son qoyulmalıdır. Düşünürəm ki, bu tələb yerinə yetirilməlidir ki, sülh sazişi imzalansın. Azərbaycanın tələbləri beynəlxalq hüquqa əsaslanır və yetəri qədər önəmlidir. Ermənistan konstitusiyası dəyişdirildikdən, bununla yanaşı, ATƏT-in Minsk qrupu buraxıldıqdan sonra sülh müqaviləsi tezliklə imzalana bilər", - deyə o əlavə edib.

Ekspertin fikrincə, Ermənistan tərəfi bu prosesi yubatmamalı, sülh üçün çətinliklər yaratmamalı və ayrı-ayrı havadarlarına güvənib prosesləri yenidən uzatmağa cəhd etməməlidir: "Çünki bundan əvvəl belə hadisələrin şahidi olmuşuq. Bayden-Blinken cütlüyünə, Avropa Parlamentinə, E.Makrona, Avropa Şurası Parlament Assembleyasına güvənən Ermənistanın siyasi rəhbərliyi Azərbaycana qarşı təzyiqləri artırmağa, ölkəmiz əleyhinə məkrli siyasət yürütməyə, yekunda Azərbaycanı öz şərtlərindən çəkindirməyə vadar etməyə çalışıb. Lakin İrəvan bu məqsədlərinə çata bilmədi".

İlyas Hüseynov vurğuladı ki, Azərbaycanın qətiyyətli siyasəti və Prezident İlham Əliyevin siyasi iradəsi bütün əngəllərin, maneələrin dəf olunmasına gətirib çıxarıb. Vaşinqtonda - Ağ Evdə imzalanan sənədlər tarixi nailiyyət hesab oluna bilər. Azərbaycan müharibədə də, sülhdə də qazandı. Bu nailiyyətlər həm də Azərbaycan xalqının böyüklüyünü, əzmkarlığını, eləcə də tarixi qələbəsini əks etdirir.

***Ə.QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 13 avqust (№168).- S.9.